**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HEYDƏR ƏLİYEVİN NƏZƏRİ İRSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 5908.01 – "Siyasi nəzəriyyə"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Məftunə Rəşid qızı Abdullayeva**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

Bakı – 2021

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Politologiya və sosiologiya» kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə üzrə fəlsəfə doktoru, professor
**Əli Cavad oğlu Əhmədov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Aida Məmməd qızı Yusifzadə**

fəlsəfə elmləri doktoru, professor
**Rəna Rza qızı Mirzəzadə**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəcəb Zakir oğlu Rəhimli**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının
Sədri: akademik, biologiya elmləri doktoru, professor

_____________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru,professor əv.

_____________________**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: fəlsəfə elmləri doktoru, professor

___________________**Əlikram Zakir oğlu Abdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna imkan yaradan daxili və xarici siyasətin həyata keçirilməsi zərurəti ilə üzləşdi. Milli maraqların düzgün dərk edilməsi, dövlətin daxili və xarici siyasətində optimal kursun seçilməsi həyati milli tələbata çevrildi. Milli maraqların reallaşdırılması və təmin edilməsi təhlükəsizlik şəraitinin yaradılmasını və əsaslarının formalaşdırılmasını tələb edirdi. Bütün bunlar müstəqilliyin ilk illərində ölkəyə səriştəsiz rəhbərlik nəticəsində bütün sahələrdə getdikcə dərinləşən böhranlar, cəbhə bölgəsindəki uğursuzluqlar şəraitində mümkün deyildi. Yalnız 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev elmi prinsiplərə və intellektual potensiala əsaslanan mükəmməl dövlətçilik konsepsiyası yaratmış, dövlət idarəçiliyi sahəsinə dərin elmi-nəzəri və praktik töhfə bəxş etmişdir. Heydər Əliyevin dövlətçilik konsepsiyası ölkə vətəndaşlarına cəmiyyət həyatının bütün sahələrində bərabər imkanların yaradılmasını nəzərdə tuturdu.

Heydər Əliyevin nəzəri irsində onun dövlətçilik fəlsəfəsi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü əhəmiyyətli yer tutur. Onun həyata keçirdiyi siyasət Azərbaycanda inzibati-amirlik idarəetmə sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri əsaslarını formalaşdırmışdır. Ulu öndərimiz Azərbaycanda yeni cəmiyyət quruculuğunun mahiyyətini açıqlayaraq demişdir: “Respublikamızda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının təmin olunması bizim əvvəlcədən qəbul etdiyimiz prinsiplərdir”.[1]

İmperiya və totalitar sistemindən azad olaraq müstəqillik yolu tutmuş, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalmış, qloballaşan dünyada öz yerini müəyyənləşdirməyə çalışan gənc Azərbaycan Respublikası üçün Heydər Əliyevin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası oldu. Onun nəzəri irsində başlıca istiqamətlər sırasında milli təhlükəsizlik siyasəti xüsusi yer tutur. Bu siyasət çərçivəsində ölkənin müstəqilliyi və ərazi

---

[1] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı. Azərnəşr, 1997, 135 s. S.8.

bütövlüyünün qorunması, Azərbaycanın milli təhlükəsizliyinin beynəlxalq təhlükəsizlik sistemi ilə səmərəli şəkildə əlaqələndirilməsi prioritet təşkil edir. Nəzəri cəhətdən əsaslandırılmış bu müddəalar ölkənin ərazi bütövlüyünü bərpa etmək məqsədilə bütün imkanlardan, bütün vasitələrdən istifadə ediləcəyini tam və aydın ifadə edir. Ulu öndərin uzaqgörənliyini xüsusi olaraq vurğulayaraq, akademik R.Mehdiyev qeyd edir: "Heydər Əliyev yaxşı başa düşürdü ki, mahiyyətcə gələcəyə yönəlmiş inkişaf strategiyasında əsas vasitə iqtisadiyyatın tezliklə dirçəlməsi, Azərbaycanın təbii ehtiyatlardan, iqtisadi, təhsil, elm və mədəniyyət potensialından xalqın bəhrələnməsi üçün ən əlverişli şəraitin yaradılmasından ibarətdir"[1].

Müəllifi Ulu öndərimiz Heydər Əliyev olduğu Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə milli təhlükəsizliyin hüquqi bazası yaradılmış, təhlükəsizliyin qarantı kimi çıxış edən Konstitusiyada milli maraqların reallaşmasını təmin edən milli təhlükəsizlik siyasətinin başlıca prinsipləri öz təsbitini tapmışdır. Bütövlükdə, Ümummilli liderimiz Heydər Əliyevin yaxın və uzunmüddətli dövrlər üçün milli təhlükəsizlik siyasətinin nəzəri-konseptual müddəaları ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin yaradılmasını nəzərdə tutmaqla, bu siyasətin başlıca istiqamətlərini müəyyən edirdi. Digər tərəfdən, bu müddəalar milli təhlükəsizliyin təmin edilməsinin sistemli, uzunmüddətli və fasiləsiz xarakterli proses olduğunu özündə ifadə edirdi. Bütün bunlar dahi liderimizin bu sahədə yeni reallıqlara uyğun müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsinə yönələn ardıcıl fəaliyyətinin əsasını təşkil etmişdir. Bu məsələlərin araşdırılması həm Azərbaycan siyasi elmi, həm də müstəqil dövlətçiliyimizin inkişafı üçün xüsusi əhəmiyyət və aktuallıq kəsb edir. Bu kontekstdə Heydər Əliyevin milli təhlükəsizlik siyasətində nəzəri və praktiki məsələlərin vəhdətdə və sistemli öyrənilməsi zəruridir.

Daxili və xarici siyasətin başlıca məzmununu məhz milli maraqlar və milli təhlükəsizlik təşkil edir. Problemin bu aspektdən tədqiqi xüsusi əhəmiyyət kəsb edir, buna görə də aparılan elmi təhlildən kənarda qalmamalıdır.

---

[1] Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. Bakı, 2006, s.134.

Milli təhlükəsizlik dövlət quruculuğunun və sabitliyin yaradılmasının başlıca amili kimi çıxış edir. Bu vacib məqam nəzəri fikrin, konseptual yanaşmaların mərkəzi istiqamətini təşkil edir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin Heydər Əliyevin nəzəri irsi kontekstində tədqiqi getdikcə ictimai-sosial reallığın tələbatına çevrilir ki, bu da həmin məsələlərin araşdırılmasını zəruri edir.

Azərbaycanın müasir milli təhlükəsizlik strategiyası dahi rəhbərin adı ilə sıx bağlıdır. Heydər Əliyevin bu sahədəki siyasi kursu, eləcə də nəzəri və praktiki irsi, digər sahələrdə olduğu kimi, onun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən siyasi inkişaf etdirilərək, böyük inamla və uğurla davam etdirilir. Məhz onun müdrik rəhbərliyi altında bu istiqamətdə mühüm islahatlar aparılmış, zəruri hüquqi baza möhkəmləndirilmişdir. Bu baxımdan Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanununun, Milli Təhlükəsizlik Konsepsiyasının, bir sıra digər normativ-hüquqi aktların qəbul edilməsi olduqca əhəmiyyətli olmuşdur. Bütün bunlar müstəqil Azərbaycan dövlətçiliyinin təhlükəsiz inkişafının möhkəm əsaslarının yaradılmasına imkan vermişdir. Dövlətimizin milli təhlükəsizlik siyasəti və milli maraqların reallaşdırılmasında ən böyük nailiyyətlərdən biri Heydər Əliyev ənənələri və ideyalarının qorunub saxlanılması və inkişaf etdirilməsidir ki, bu da 44 günlük Vətən müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında təcavüzkar Ermənistan üzərində Azərbaycanın Böyük qələbəsinə nail olunmasında xüsusi rol oynamış və işğaldan azad olunmuş ərazilərimizdə etibarlı təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir.

Ulu öndərimiz Heydər Əliyev özünün dövlətçilik təlimi çərçivəsində milli ideologiyanı – müstəqil Azərbaycanın vətəndaşlarını birləşdirən, xalqı vahid ideya, məqsədlər və vəzifələr ətrafında səfərbər edən müasir Azərbaycançılıq ideologiyasını yaratdı. Bu zaman Heydər Əliyev milli-ideoloji baxışlar sisteminin formalaşdırılmasında varislik prinsipini qoruyub saxlayaraq, Azərbaycançılığa vaxtilə irəli sürülmüş birləşdirici ideya kimi müraciət etmiş və onu bütün dünyada yaşayan Azərbaycanlıların milli birlik platformasına çevirmişdir.

Qeyd olunanlar Heydər Əliyevin nəzəri irsində milli təhlükəsizliyin təmin edilməsi istiqamətlərinin sistemli şəkildə araşdırılmasının nəzəri və praktik baxımdan əhəmiyyətli olduğunu göstərir və təqdim olunan dissertasiya mövzusunun aktuallığını bir daha təsdiq edir.

**Mövzunun işlənmə dərəcəsi.** Dünya şöhrətli dahi siyasətçi və dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin nəzəri irsi, eləcə də bu kontekstdə müstəqil Azərbaycanın milli təhlükəsizlik siyasəti, onun konseptual əsasları və reallaşması mexanizmi geniş siyasətçilər dairəsi ilə yanaşı, alimlər, tədqiqatçılar üçün də böyük maraq doğurur və bu maraq getdikcə daha da artmaqdadır. Bu baxımdan dissertasiya işində ilk növbədə Azərbaycan alimlərindən Ramiz Mehdiyev, Əli Əhmədov, Məcid Əfəndiyev, Hikmət Babaoğlu, Aydın Mirzəzadə, İradə Hüseynova, Hidayət Orucov, Cəlil Xəlilovun və digər müəlliflərin tədqiqat işləri nəzərdən keçirilmiş və onlara münasibət bildirilmişdir.[1]

Azərbaycan Respublikasının daxili və xarici təhlükəsizlik məsələləri, eləcə də milli təhlükəsizliyin geosiyasi aspektləri Z.Həsənalıyevin "Milli təhlükəsizliyin əsasları", C.Xəlilovun "Milli təhlükəsizlik strategiyası", C.Qasımov və N.Nağıyevin "Milli təhlükəsizliyin əsasları", A.Piriyevin "Siyasi strategiya və milli təhlükəsizlik" kitablarında araşdırılır.

Problemlə bağlı Rusiya alimlərinin tədqiqat işləri də maraq doğurur. Onlardan P.Siqankovun, A.Duqinin, N.Nartovun, K.Hacıyevin, V.Lukinin və b. əsərlərində baxılan problemin müxtəlif aspektləri tədqiq edilmişdir.[2]

---

[1] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri, keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI əsr – YNE, 2005, 463s.; Əhmədov Ə. Politologiya. Bakı: Təbib, 1997, 416s.; Əfəndiyev M. Siyasi elm. Bakı: "Siyasət" nəşriyyatı, 2017, 862s.; Hikmət Babaoğlu. Heydər Əliyev siyasi irsinin politoloji xüsusiyyətləri. Bakı: 2014; Mirzəzadə A. Zaman, inkişaf, Bakı: 2004, 607s.; Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: 2001.

[2] Цыганков Н.А. Геополитика. М.: «Юнити», 1999, 359 с.; Дугин А. Основы геополитики. М.: «Наука», 1999, 810 с.; Гаджиев К.С. Геополитика Кавказа. М.: "Международные отношения», 2001, 464 с.; Гаджиев К.С. Введение в геополитику. М.: Междунродные отношения, 2002, 612 с.; Лукин В.Н. Глобализация и международный терроризм. М.: Наука, 2006, 496 с. və b.

P.Siqankov “Beynəlxalq təhlükəsizlik nəzəriyyəsi” monoqrafiyasında milli təhlükəsizlik, geosiyasi təhlükəsizlik və tədqiqatla bağlı olan digər məsələlərə mühüm diqqət yetirmişdir. N.Nartov təhlükəsizliyi geosiyasi aspektdən araşdırmışdır. A.Duqinin “Geosiyasətin əsasları” monoqrafiyasında Rusiyanın xarici siyasətində milli təhlükəsizlik amilinə geniş yer verilir. K.Hacıyevin “Qafqazın geosiyasəti”, “Geosiyasətə giriş” kitablarında beynəlxalq təhlükəsizlik probleminin müxtəlif tərəfləri təhlil edilir.

Milli təhlükəsizlik problematikası ilə bağlı, ABŞ və Avropa alimlərinin tədqiqatları diqqəti cəlb edir. ABŞ “Siyasi realizm” məktəbinin nümayəndələri H.Morgentaunun, C.Rozenaunun, Z.Bjezinskinin, K.Popperin və b. əsərlərində qloballaşma, milli maraq və milli təhlükəsizlik məsələlərinə ciddi diqqət yetirilmişdir. Tədqiq etdiyimiz problem müxtəlif aspektlərdən respublikamızda və xaricdə bu və ya digər dərəcədə öyrənilsə də, təqdim etdiyimiz dissertasiya işi mövzunun sistemli, kompleks tədqiqinə ilk cəhddir.[1]

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqatın obyektini Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin nəzəri irsi kontekstində Azərbaycanın milli təhlükəsizlik siyasəti, predmetini isə bu siyasətin konsepsiyası, əsas istiqamətləri və xüsusiyyətləri, milli təhlükəsizliyə təhdidlər və onların qarşısının alınması mexanizmi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin nəzəri irsində dövlətçilik ənənələrinin təhlili, Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin konseptual əsasları və reallaşması istiqamətlərinin tədqiq edilməsi, müsbət dəyişikliklərin və mövcud təhdidlərin mənfi təzahürlərinin açılıb göstərilməsindən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələrinin yerinə yetirilməsi vacib hesab edilmişdir:

---

[1] Бжезинский З. Великая шахматная доска. М.: 1998, 256 с.; Бжезинский З. Выбор мирового государства …. глобальная лидерства. Поппер К. «Отрытое общество и его враги. Главы из книги. М.: Soros foundation USA, 1992, 340 с.

- Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dövlətçilik ənənələrinin tarixi köklərinin və müasir dövrdə davam etdirilməsi və inkişaf etdirilməsinin araşdırılması;

- milli təhlükəsizlik probleminə müasir nəzəri-konseptual yanaşmaların təhlil edilməsi;

- dövlətin milli təhlükəsizlik konsepsiyasının müstəqilliyin və suverenliyin vacib amilinə çevrilməsi ənənələrinin tədqiqi;

- Heydər Əliyevin milli təhlükəsizlik siyasətində nəzəriyyə və praktikanın vəhdətdə tədqiq edilməsi;

- milli təhlükəsizliyin müstəqil dövlət quruculuğunun və daxili sabitliyin təmin edilməsinin tərkib hissəsi kimi öyrənilməsi;

- qloballaşma şəraitində Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, milli təhlükəsizliyinə yaranan təhdidlər və onların qarşısının alınması yollarının araşdırılması;

- Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində milli təhlükəsizliyin təmin olunması məsələlərinin araşdırılması;

- Azərbaycanın ərazi bütövlüyünün bərpasının Heydər Əliyev siyasətinin başlıca istiqaməti kimi nəzərdən keçirilməsi, işğalçı Ermənistan üzərində Azərbaycanın Parlaq Qələbəsinin nəticələrinin işıqlandırılması;

- milli təhlükəsizlik siyasətində varislik prinsipinin həyata keçirilməsinin Heydər Əliyevin nəzəri irsinin davam etdirilməsi kontekstində tədqiq olunması;

- milli siyasi və mənəvi dəyərlərin təhlükəsizliyinin dövlətçiliyin möhkəmləndirilməsinin mühüm şərti kimi araşdırılması.

**Müdafiəyə çıxarılan müddəalar**:

– Milli təhlükəsizlik şəxsiyyət, cəmiyyət və dövlətin təhlükəsizliyinə mövcud təhdidlərin qarşısının alınmasını nəzərdə tutmaqla daxili və xarici vəziyyətdən, eləcə də beynəlxalq səviyyədə reallaşan proseslərdən asılıdır.

– Ümummilli lider Heydər Əliyevin nəzəri irsində milli təhlükəsizliyin konseptual əsasları xüsusi yer tutmaqla, onun milli inkişaf strategiyasında özünün ifadəsini tapır;

– Baş verən siyasi qanunauyğunluqlar əsasında irəli sürə bilərik ki, Azərbaycan regionun güclü dövlət olmaqla, dünya birliyinin söz sahibi olan nüfuzlu üzvünə çevrilmişdir.

– Hazırda ölkəmizdə informasiya cəmiyyətinin qurulmasında informasiya təhlükəsizliyinin təmin edilməsi prioritetlərdən birini təşkil etməklə, bütövlükdə milli təhlükəsizlik siyasətinin səmərəliliyinə xidmət edir;

– Dövlət quruculuğu sahəsində islahatlar həyata keçirilərkən sosial qrupların maraqları nəzərə alınması nəticəsində siyasi sabitlik daha da möhkəmləndirilmiş və davamlı xarakter almışdır.

– Müstəqil dövlətçiliyin mşhkəmləndirilməsində və milli təhlükəsizliyin təmin edilməsində Ulu öndərin yaratdığı müasir Azərbaycançılıq ideologiyası başlıca amillərdən biri kimi çıxış edir. Bu baxımdan cəmiyyət üzvlərinin siyasi şüuru və siyasi mədəniyyətinin yüksəldilməsinə yönələn kompleks, sistemli və ardıcıl tədbirlər proqramlarının həyata keçirilməsi də vacibdir.

– Siyasi təhlükənin aradan qaldırılmasında dövlətin daxili və xarici siyasətində milli maraqların reallaşmasının əsas prinsip kimi götürülməsi, milli təhlükəsizlik siyasətinin milli maraqlar sisteminin dinamikası kontekstində öyrənilməsi vacibdir.

– Milli təhlükəsizliyin təmin edilməsi ölkənin müdafiə qüdrətinin gücləndirilməsi, ərazi bütövlüyünün möhkəmləndirilməsi, təxribat və terror hadisələrinin qarşısının alınmasna xidmət edir. Bunu Azərbaycanın işğalçı Ermənistan üzərində Parlaq Qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsi təsdiq etdi.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri əsaslarını Azərbaycan Respublikasının görkəmli alimlərinin Heydər Əliyev dühası haqqında yazdıqları elmi əsərlər, Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri və çıxışlarında irəli sürülmüş konseptual müddəalar, milli təhlükəsizliyin təmin edilməsi ilə bağlı, eləcə də bu sahədəki fundamental işlər təşkil edilir.

Tədqiqat işində nəzəri məsələlərin təhlilində tarixi idrak, məntiqi ümumiləşdirmə, analiz və sintez, induksiya və deduksiya kimi ümumməntiqi metodlar əsas götürülmüşdür. Tədqiqatın aparılmasında

həmçinin sistemli təhlil, müqayisəli politoloji təhlil, müqayisəli-tarixi metodlardan, kontent–analiz və digər elmi araşdırma medodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyini konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- Heydər Əliyevin nəzəri irsində milli təhlükəsizliyə dair başlıca konseptual müddəalar müasir dünya siyasəti nəzəriyyələri kontekstində araşdırılmış, onların məzmunu açılıb göstərilmiş və müasir reallıqlar baxımından dəyərləndirilmişdir;
- Heydər Əliyevin milli təhlükəsizlik siyasətinin məzmunu nəzəri və praktiki aspektlərdən vəhdətlə təhlil edilmiş, onun komponentləri və istiqamətləri sistemli yanaşma əsasında öyrənilmiş, bu siyasi kursun reallaşması mexanizmi politoloji təhlil əsasında təqdim edilmişdir;
- Heydər Əliyevin nəzəri irsində milli maraqlar sistemi, onların siyasi prosesdə dinamikası və formalaşması amilləri araşdırılmış, bu baxımdan vacib amillərdən biri kimi azərbaycançılıq ideologiyasının milli birlik platformasına çevrilməsinin xüsusi yeri açılıb göstərilmişdir;
- milli təhlükəsizliyin bir komponenti olan daxili təhlükəsizliyin ölkədə ictimai-siyasi sabitliyin yaradılmasında rolu geniş təhlillər əsasında müəyyən edilmişdir;
- müstəqil Azərbaycan dövlətinin xarici siyasətində milli təhlükəsizliyin təmin olunması Heydər Əliyevin nəzəri irsi kontekstində təhlil edilmiş, bu siyasətin, eləcə də ölkənin ərazi bütövlüyünün bərpası istiqamətindəki strateji kursun onun layiqli siyasi varisi, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin Azərbaycanın işğalçı Ermənistan üzərində Böyük Qələbəsinə gətirib çıxarması arqumentli şəkildə əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat işinin nəzəri müddəaları və praktik əhəmiyyət kəsb edən nəticələrindən problemlə bağlı elmi araşdırmaların aparılmasında zəmin kimi istifadə olunmaqla, Heydər Əliyev nəzəri irsinin araşdırılması, "Milli təhlükəsizlik", həmçinin "Azərbaycan Respublikasının xarici siyasəti" və digər bu kimi problemlərin tədqiqində faydalı ola bilər, eləcə də bu istiqamətdə elmi-praktiki konfransların hazırlanması və keçirilməsində, beynəlxalq

münasibətlər, milli təhlükəsizlik, xarici siyasət fənləri üzrə mühazirə və praktik məşğələlərdə istifadə edilə bilər.

Tədqiqat materiallarından həmçinin milli təhlükəsizlik və siyasi strategiya üzrə mühazirə mətnlərinin hazırlanmasında, milli təhlükəsizlik fənn proqramlarının, monoqrafiya və dərsliklərin hazırlanmasında istifadə etmək olar. Tədqiqatda əldə olunan nəticələrdən gənc nəsildə yüksək mənəvi keyfiyyətlərin, milli vətənpərvərlik hissinin inkişaf və tərbiyə edilməsi sahəsində, həmçinin bakalavr buraxılış işlərinin və magistr dissertasiyalarının yazılmasında geniş istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işi Bakı Dövlət Universitetinin "Politologiya və sosiologiya" kafedrasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir, elmi-praktik konfransda məruzə edilmişdir. Tədqiqat işinin əsas məzmunu iddiaçının Azərbaycanda və xaricdə dərc etdirdiyi elmi məqalələrdə, respublika və beynəlxalq səviyyəli elm konfranslarda etdiyi çıxışları və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın struktur quruluşu və həcmi.** Dissertasiya işi 3 fəsil, 9 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya Girişdə 20592 işarə, I fəsildə 83082, II fəsildə 54923, III fəsildə 81204 işarə, nəticədə 8197 işarə, istifadə edilmiş ədəbiyyat siyahısında 23591 işarə olmaqla, ümumilikdə 274027 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi təhlil edilərək, mövcud ədəbiyyata münasibət bildirilir, tədqiqatın məqsəd və vəzifələri haqqında geniş məlumat verilir, tədqiqatın obyekti və predmeti, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, nəzəri-praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli **"Heydər Əliyevin nəzəri irsində milli təhlükəsizliyin elmi-nəzəri əsasları"** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir. Birinci fəslin **"Milli təhlükəsizliyin mahiyyəti və başlıca komponentləri: siyasi təhlil"** adlı birinci yarımfəslində ilk olaraq milli

təhlükəsizlik anlayışı siyasi kontekstdə təhlil edilir. Qeyd edilir ki, milli təhlükəsizlik, onun təmin edilməsi və sisteminin möhkəmləndirilməsi daim hər hansı dövlətin başlıca problemlərindən biri olmuşdur. O, konkret məzmun kəsb etməklə dövlətin milli dəyərə malik maraqlarını qorumaq qabiliyyəti ilə səciyyələnir. Milli təhlükəsizlik ənənəvi olaraq 2 aspekti ilə nəzərə çarpır: daxili və xarici. Daxili aspekt dövlətin milli təhlükəsizliyinin daxili elementləri ilə bağlıdır. Ölkənin milli təhlükəsizliyinin xarici aspekti isə onun dövlətlərarası münasibətlərindən hasil olmaqla ona yönələn istənilən destruktiv təsirləri kompensasiya etmək və ya neytrallaşdırmaq səviyyəsini səciyyələndirir.

Bildirilir ki, daxili aspektdə milli təhlükəsizlik dinamik vəhdətdə olan 3 başlıca səviyyəyə malikdir: şəxsiyyətin təhlükəsizliyi, cəmiyyətin təhlükəsizliyi, dövlətin təhlükəsizliyi. İctimai-siyasi quruluşun, iqtisadi, sosial-siyasi və mədəni inkişafın səviyyəsindən asılı olaraq həmin səviyyələrdən hər hansı biri ön plana keçə bilər. Milli təhlükəsizliyin struktur elementləri – siyasi, iqtisadi, mədəni, ekoloji, hərbi, informasiya və digərləri bir-biri ilə qarşılıqlı bağlılıq kəsb edir. Tədqiqat işində məhz bu kontekstdə milli təhlükəsizliyin struktur-funksional mahiyyəti təhlil edilir.

Milli təhlükəsizliyin daxili-mərkəzi elementlərindən biri siyasi təhlükəsizlikdir. Siyasi təhlükəsizlik hər şeydən əvvəl, cəmiyyətin daxili möhkəmliyinə, sabitliyə əsaslanır. Sabit siyasi sistemə əsaslanan, bütün sosial qrupların və siyasi qüvvələrin maraqlarını əks etdirən siyasi rejim millətin birliyinə kömək edir. Ölkənin siyasi təhlükəsizliyinə cəmiyyətin digər struktur elementlər sistemi, məsələn, siyasi ənənələr və normalar, siyasi mədəniyyət və b. təsir göstərir.[1]

Milli təhlükəsizliyin digər xüsusi elementi iqtisadi təhlükəsizlikdir. Bu təhlükəsizlik suveren xalqın xaricdən heç bir təzyiq və müdaxilə olmadan öz iqtisadi inkişafının forma və yollarının müəyyən edilməsidir. Ölkənin iqtisadi təhlükəsizliyi dedikdə bütövlükdə onun elə vəziyyəti başa düşülür ki, orada zəruri maliyyə, istehsal, əmək, intellektual potensial, onun effektiv funksiyalaşmasına təminat verən istehsalın təşkili sistemi mövcud olsun. Milli təhlükəsizliyin iqtisadi

[1] Проскурин С.А. Геополитическое измерение глобального информационного пространства Геополитика. М., ТАТС, 2007, səh. 226.

sferası iki başlıca əsasa – daxili maddi və daxili sosial-siyasi əsaslara malikdir.

Bu yarımfəsildə eləcə də milli təhlükəsizliyin digər sferalarının – elementlərinin mahiyyəti və məzmununa aydınlıq gətirilir. Bununla bağlı ekoloji, informasiya, mədəni, hərbi və digər təhlükəsizlik anlayışları əhatəli vurğulanır, onların sosial-siyasi əhəmiyyəti və zəruriliyi əsaslandırılır. Bütövlükdə həmin milli təhlükəsizlik elementlərinin müqayisəli təhlilinə cəhd edilir.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəsli **"Müasir siyasi nəzəriyyələrdə milli təhlükəsizlik probleminə konseptual yanaşmalar"** adlanır. Bu yarımfəsildə milli maraqlar anlayışının məzmunu və təhlükəsizliyi açıqlanır, milli maraq və milli təhlükəsizlik dövlətin siyasətinin başlıca məzmunu kimi təhlil edilir.

Milli maraqlar və təhlükəsizliklə bağlı siyasət nəzəriyyəsində mövcud olan əsas konsepsiyalar, paradiqmaların müqayisəli təhlili verilir. Siyasi realizmin banisi sayılan Hans Morgentaunun milli maraq və milli təhlükəsizliyə aid ən əhəmiyyətli fikirləri, siyasi realizmin prinsipləri məntiqi ardıcıllıqla və əhatəli vurğulanır.

Bu yarımfəsildə beynəlxalq münasibətlər nəzəriyyəsində milli təhlükəsizliklə bağlı olan digər konsepsiyalara da aydınlıq gətirilir. Klassik qərb siyasi fəlsəfəsində geniş yayılan "bioloji konsepsiya"; liberalizm, neorealizm, neomarksizm və b. paradiqmaların mahiyyəti, vurğulanmaqla yanaşı onların müqayisəli təhlilinə də cəhd edilir.

Spesifik mahiyyəti ilə səciyyələnən neorealizm konsepsiyasına xüsusi diqqət yetirilir. Bununla bağlı XX əsrin 70-ci illərində təşəkkül tapan neorealist paradiqma və ya struktur realizm məktəbi nümayəndələri hesab olunan K.Uolsun, P.Hiplinin, B.Buzanın və başqalarının fikirləri vurğulanır. Neorealizmin tərəfdarları dövləti hələlik beynəlxalq siyasətin başlıca subyekti kimi dəyərləndirirlər. Lakin bildirirlər ki, dövlətin xarici siyasəti milli marağı reallaşdırmaq üçün ittifaqa, koalisiyaya, bloka daxil olmaqdan asılıdır. Məsələn, Uolsun fikrincə, beynəlxalq münasibətlər sistemi nə qədər ki, milli dövlətə əhəmiyyətli təsir göstərir, belə halda dövlət öz hərbi qüdrətini və imkanlarını artırmaq məqsədilə dünyanın siyasi strukturunu dəyişməyə cəhd edir.

Birinci fəslin **"Heydər Əliyevin milli təhlükəsizlik siyasətində nəzəriyyə və praktikanın vəhdəti"** adlı üçüncü yarımfəslində Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü, inzibati-amirlik sistemindən yeni cəmiyyətə keçidə dair formalaşdırdığı elmi-nəzəri əsaslar və müstəqil dövlətçilik konsepsiyası təhlil edilir. Onun milli təhlükəsizliklə bağlı nəzəri-praktiki fəaliyyətinin əsasını ölkə daxilində, regionda və beynəlxalq aləmdə cərəyan edən proseslərin öyrənilməsi, qiymətləndirilməsi və mövcud vəziyyətə uyğun gələn elmi-siyasi fəaliyyət proqramının hazırlanması təşkil edir.

Bu yarımfəslin mahiyyəti və elmi məzmununun təhlili Heydər Əliyevin proqram xarakterli belə bir əhəmiyyətli fikrinə əsaslanır ki, fəaliyyətə başlamazdan əvvəl dövlət və dövlətçiliklə bağlı hər şey dərindən təhlil edilməli, proqnozlaşdırılmalı və çevik fəaliyyət proqramı hazırlanmalıdır. Yalnız bundan sonra bu proqramı həyata keçirmək üçün bütün resurslar – maddi, mənəvi, insan potensialı səfərbər olunmalı və vahid mərkəzdən idarə prinsipi təmin edilməlidir.[1] Yarımfəsildə həmçinin qeyd edilir ki, milli təhlükəsizlik probleminin, onun məzmununun, eləcə də strukturunun möhkəmləndirilməsi yolları və vasitələrinin hərtərəfli öyrənilməsi siyasət nəzəriyyəsinin və siyasi praktikanın ən aktual problemlərindən birinə çevrilmişdir. Bu problemin Heydər Əliyevin siyasi irsi kontekstində araşdırılıb təhlil edilməsi Azərbaycan reallıqları baxımından xüsusi zərurət kəsb edir. Heydər Əliyev Azərbaycanın milli təhlükəsizliyinin mühüm şərtlərindən və amillərindən biri kimi daxili ictimai sabitliyin yaradılması, davamlı olaraq təmin edilməsi və qorunması vəzifəsini irəli sürürdü. O, daim vurğulayırdı ki, ictimai-siyasi həyatı sabit, iqtisadiyyatı güclü və vətəndaş birliyi olan dövlətlər hər şeyə qadirdir.[2]

Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik siyasətində əsaslandığı və keçid dövrü üçün dövlət quruculuğunda nəzərə alınmasını vacib saydığı başlıca vəzifələrdən biri də səmərəli xarici siyasət fəaliyyəti və tarazlı inkişaf prinsipi idi. Azərbaycanın milli təhlükəsizlik və xarici siyasət maraqları ilə dünya dövlətlərinin

---

[1] Babaoğlu H. Heydər Əliyev irsinin politoloji xüsusiyyətləri. Bakı, 2014, səh. 84
[2] Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 cilddə. Birinci kitab. Bakı, 1997, səh. 245.

Azərbaycandakı maraqları arasında tarazlıq yaratmaq xətti müasir diplomatiyamızda nəzərə çarpan başlıca məqamlardan biridir.

Ümumilikdə, belə qənaətə gəlinir ki, Heydər Əliyevin uzaqgörən uğurlu daxili və xarici siyasəti sayəsində müstəqil Azərbaycan dövlətinin dayaqlarının möhkəmlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına, dövlətin daxili və xarici təhlükəsizliyinin təmin edilməsinə nail olunmuşdur.

Dissertasiyanın ikinci fəsli **"Heydər Əliyevin daxili təhlükəsizlik siyasəti: konsepsiyası və reallaşması modeli"** adlanır. Bu fəslin **"Heydər Əliyevin nəzəri irsində milli maraqlar sistemi və onların təhlükəsizliyi"** adlanan birinci yarımfəslində milli maraq anlayışı: mahiyyəti, məzmunu, xüsusiyyətləri, milli marağın təhlükəsizliyi, buna təminat verən başlıca vasitə və şərtlər, bu istiqamətdə dövlətin daxili siyasətinin istiqamətləri kimi məsələlər araşdırılmışdır. Qeyd edilir ki, milli maraq bu və ya digər millətin nümayəndələrinin dildə, ailədə, dini və əxlaqi adət-ənənələrdə ifadə olunan mədəniyyət ümumiliyi əsasında birləşmək səylərini təcəssüm edir. O eləcə də siyasi sistemlərdə, davranışda öz ifadəsini tapır. Bir sözlə, milli maraq insanın mənsub olduğu milli birliyin üzvlərinə rəğbət bəsləməsində və məhəbbətində təzahür edir və milli birliyin bütövlüyünü qoruyub saxlamağa, milli ləyaqətin qərarlaşmasına istiqamətlənir.

Milli marağın reallaşması bir sıra zəruri amillərlə yanaşı, eləcə də (bəlkə də ilk növbədə) milli təhlükəsizlik şəraitinin qərarlaşması ilə bağlıdır. Heç də təsadüfi deyil ki, bu problemin çox görkəmli tədqiqatçısı Hans Morgentau milli mənafe problemini bütövlükdə milli təhlükəsizlik baxımdan tədqiq etməyi təklif etmişdir.

Yarımfəsildə nəzərə çatdırılır ki, millət üçün qorxu yarandığı dövrdə cəmiyyətin və dövlətin təhlükəsizliyi ön plana çəkilir. Bir qayda olaraq totalitar və avtoritar rejimlər belə təhlükəli şərait yaratdığı zaman şəxsiyyətin təhlükəsizliyi başlıca yer tutur. Demokratik cəmiyyət üçün ən əvvəl, şəxsiyyətin azadlığı və təhlükəsizliyi daha qiymətlidir. Demokratik cəmiyyətdə dövlətin və cəmiyyətin təhlükəsizliyi məqsəd

deyil, məhz şəxsiyyətin azadlığı və təhlükəsizliyini təmin etmək funksiyasıdır.[1]

Geosiyasi, geostrateji və geoiqtisadi baxımdan mürəkkəb məkanda yerləşən Azərbaycan Respublikasının milli maraqlarının və təhlükəsizliyinin təmin olunması effektli milli təhlükəsizlik strategiyası və konsepsiyasının işlənib hazırlanmasını tələb edirdi. Heydər Əliyev bu milli-tarixi vəzifəni uğurla, tələb olunan səviyyədə həll etdi. Yarımfəsildə ümumi milli maraq anlayışının başlıca tərəfləri-siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət-mənəviyyat sahələrində milli maraqlar ardıcıllıqla, məntiqi planda təhlil olunur, ümumiləşdirmələr aparılır və konkret təklif və tövsiyələr verilir.

İkinci fəslin ikinci yarımfəsli **"Milli təhlükəsizlik dövlət quruculuğunun və daxili sabitliyin yaradılmasının tərkib hissəsi kimi"** adlanır. Burada qeyd edilir ki, milli dövlətin siyasətində təhlükəsizlik məsələsi əsas yer tutur. Milli təhlükəsizliyin başlıca məqsədi dövlət quruculuğunu və ölkənin sabit inkişafını təmin etməkdən ibarətdir. İlk növbədə dövlətin müstəqilliyinə, suverenliyinə qarşı yönələn daxili və xarici təhlükə aradan qaldırılmalıdır. Hər hansı xarici dövlətin tələblərinə uyğun siyasətin həyata keçirilməsi ölkə üçün təhlükəlidir.

Bildirilir ki, ölkənin təhlükəsizliyini qorumaq üçün hər bir dövlətin milli təhlükəsizlik strategiyası olmalıdır. Azərbaycan Respublikasında Milli Təhlükəsizlik haqqında qəbul olunan qanunda (2004), Milli Təhlükəsizlik konsepsiyasında ölkənin milli təhlükəsizliyi elmi, strateji cəhətdən əsaslandırılmışdır. Siyasi strategiya milli təhlükəsizlik konsepsiyası üzərində qurulur. Milli təhlükəsizlik strategiyasında dövlətin milli maraqlarının təhlükəsizliyi əsas yer tutur. 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasında Azərbaycanda səsvermə hüququna malik olan əhalinin 95%-i iştirak edərək respublikamızın müstəqilliyinə, suverenliyinə səs verdi.

Qeyd edilir ki, müstəqillik əldə etdikdən sonra ilk növbədə qarşıda duran başlıca vəzifə dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi

[1] Əliyev H. Müstəqil Azərbaycan hüquqi dövlət quruculuğu, demokratiya və bazar iqtisadiyyatı yolu ilə inamla irəliləyir. Bakı, 2002-ci il.

bütövlüyünün bərpası, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi və s. idi. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş, daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından səmərəli istifadə olunmasını tələb edirdi. Məhz, düzgün kadr siyasəti və idarəçilik əsasında müstəqil dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirmək və mütərəqqi addımlar atmaq lazım idi.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli strategiya fonunda milli təhlükəsizliyə real və potensial təhdid yaradan ünsürlərin neytrallaşdırılması, ümumi konsensusun əldə edilməsi, daxili siyasi böhranın aradan qaldırılması, modern cəmiyyət quruculuğu fonunda növbəti strateji istiqamətlərin müəyyənləşdirilməsini həyati zərurətə çevirdi. Bunun üçün ilk növbədə ictimai-siyasi müstəvidə sabitlik təmin edilməli, ictimai-siyasi təsisatlanmanın çevik və effektiv surətdə həyata keçirilməsini şərtləndirən struktur elementləri və real zəmin bərqərar olunmalı və mərhələli demokratik tranzit həyata keçirilməli idi.

Bildirilir ki, Heydər Əliyevin əsasını qoyduğu demokratik tranzit prosesi təkmil struktur elementləri ilə özündə bir neçə xüsusi və fundamental xüsusiyyətləri cəmləşdirdi. Tranzit prosesinin başlanğıcında və onun müxtəlif mərhələlərində vətəndaşlara geniş hüquq və azadlıqlar verildi, mövcud məhdudiyyətlər aradan qaldırıldı və formalaşmış siyasi plüralizm rəqabətə əsaslanan münasibətlərin və proseslərin konstruktivliyini reallaşdırdı.

İkinci fəslin **"Azərbaycanın milli təhlükəsizlik strategiyasının reallaşdırılmasında Heydər Əliyevin nəzəri irsinin davam etdirilməsi və varislik prinsiplərinin həyata keçirilməsi"** adlı üçüncü yarımfəsli bütövlükdə daxili və xarici siyasətdə və xüsusilə milli təhlükəsizlik sferasında varislik prinsiplərinin həyata keçirilməsinə, bu istiqamətdə Heydər Əliyevin nəzəri irsinin davam etdirilməsinə həsr edilmişdir. Qeyd edilir ki, konkret tarixi məqamda Heydər Əliyevin siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər sistemi Azərbaycanın dövlətçilik maraqlarının reallaşdırılmasına istiqamətlənməsindən ibarət olmuşdur. Onun siyasi kursu Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması,

möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə əsaslanır. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda demokratik cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi dəyərlərin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan qərarlanmasına yönəlmişdir.

Azərbaycan üçün strateji əhəmiyyətə malik olan bu kursun davam etdirilməsi istəyinin cəmiyyətdə ciddi sosial sifarişə çevrilməsi isə hər şeydən əvvəl, Heydər Əliyevin öz siyasətində bütün vətəndaşların maraq və mənafeyinin hərtərəfli nəzərə alınmasından irəli gəlmişdir. Öz nəzəri irsinin və siyasətinin davam etdirilməsi istiqamətini müəyyənləşdirən Ümummilli lider 2003-cü il prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını ifadə etmişdir: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.[1]

Prezident İlham Əliyev fəaliyyətinin ilk günlərində respublikamızın sosial-iqtisadi cəhətdən sürətli və dinamik inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, regionların inkişafına çox böyük önəm vermişdir. Onun 24 noyabr 2003-cü il tarixli “Azərbaycan Respublikasında sosial-siyasi inkişafın sürətləndirilməsi tədbirləri haqqında”kı fərmanı ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyllərinə böyük təkan vermişdir. Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixində təsdiqlədiyi “Azərbaycan respublikası regionlarının sosial iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı” isə Azərbaycan

[1] Nəsirov E. “Azərbaycan-ABŞ münasibətləri. Bakı, Adiloğlu, 1998, səh.164

regionlarının tarazlığı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulmasına səbəb olmuşdur. Dövlət başçısı İlham Əliyevin xüsusi fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi isə bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektoru inkişafının sürətlənməsi, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa nail olmaqdır. Dövlət başçısı İlham Əliyevin prezidentlik dövrü cəmiyyət həyatının bütün sahələrində uğurlu nəticələri təmin etmişdir. O, Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişaf etdirilməsini prioritet vəzifə kimi qarşıya qoymuşdur.

Yarımfəsildə vurğulanır ki, İlham Əliyev daxili və xarici siyasətdə dəqiq koordinator sistemi qura bilmişdir. O, ardıcıl olaraq özünün əsas məqsədinə - Azərbaycanı inkişaf etmiş sabit iqtisadiyyata malik, ictimai münasibətlərdə demokratik prinsiplərin bərqərar olduğu müasir dövlətə çevirmək məqsədinə nail olmuşdur. Heydər Əliyevin ənənələrini davam etdirən Prezident İlham Əliyev Azərbaycanın daha da möhkəmlənməsi, onun suverenliyinin artırılması, demokratik prinsiplərin həyata keçirilməsi, Azərbaycanın inkişaf etmiş dünya dövlətləri sırasına daxil olması üçün böyük işlər görmüş və görməkdə davam edir.

**"Azərbaycan Respublikasının xarici siyasətində milli təhlükəsizliyin təmin edilməsi Heydər Əliyevin nəzəri irsi kontekstində"** adlanan üçüncü fəsil 3 yarımfəsildən ibarətdir. Bu fəslin **"Müstəqil Azərbaycanın xarici siyasət fəaliyyətində milli təhlükəsizliyin təmin olunması"** adlı birinci yarımfəslində xarici siyasət anlayışı, onun siyasi-milli məzmunu, məqsədi, vasitələri və vəzifələri vurğulanır. Bununla bağlı qeyd edilir ki, müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasının başqa dövlətlərlə münasibətlərinin hamılıqla qəbul edilmiş hüquq normalarında nəzərdə

tutulmuş prinsiplər əsasında qurur.[1]. Bu kontekstdə Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələr qruplaşdırılır və məntiqi ardıcıllıqla nəzərə çatdırılır

Qeyd edilir ki, müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə seçilir. Siyasi sahədə Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivil dövlətlərarası münasibətlərə hörmət bəsləməkdən, beynəlxalq, regional və dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan ibarətdir. Azərbaycan dövlətinin xarici siyasətinə aid vəzifələr sistemində ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək xüsusi yer tutur.

Göstərilir ki, Azərbaycanın xarici siyasət sahəsində milli təhlükəsizliyi ilə bağlı mühüm fəaliyyət istiqaməti ilk növbədə regionda böyük təsir gücünə malik olan Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Xarici siyasətdə milli təhlükəsizliyin təmin edilməsi zərurətindən irəli gələn digər vacib fəaliyyət istiqaməti Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaradılmasıdır. Yeni şəraitdə Qafqazın təhlükəsizlik problemlərinin və strateji dövlətçilik maraqlarının eyniliyi, bölgə dövlətlərinin qarşı-qarşıya qoyulması hallarının aradan qaldırılması zərurəti bu istiqamətdə xüsusi xarici siyasət yeridilməsini və region dövlətləri arasındakı hərtərəfli əlaqələri tənzimləyən münasibətlər formalaşdırılmasını həyati zərurətə çevirir.

Bildirilir ki, 1993-cü ilin sonundan etibarən Azərbaycanın xarici siyasətində bu istiqamət xüsusilə aydın parametrlər kəsb etməyə başladı. 1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəsin əldə olunması, 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz" bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanması Respublikamızın Qafqazda

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016, səh.7.

həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu.[1]

Həyata keçirilən yeni xarici siyasət dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövlətinə öz təhlükəsizliyi və digər ölkələrlə qarşılıqlı faydalı əlaqələr yaratması üçün etibarlı beynəlxalq təminat qazanmağa imkan verdi. Azərbaycanın milli təhlükəsizlik maraqlarının qorunması, onun beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirilməsi, beynəlxalq terrorizmə qarşı birgə mübarizə aparılması xarici siyasətdə milli təhlükəsizliyin təmin edilməsinin ən zəruri vəzifələrindən biridir.

Üçüncü fəslin ikinci yarımfəsli **"Ərazi bütövlüyünün bərpası Heydər Əliyev siyasətinin prioritet istiqaməti kimi"** adlanır. Qeyd edilir ki, dünya siyasətinin və beynəlxalq münasibətlər sisteminin əsas meyllərini müəyyənləşdirən və istiqamətləndirən güc mərkəzləri dünyanın bəzi regionları kimi, Cənubi Qafqazı da özlərinin uzunmüddətli strateji planlarına daxil ediblər. Bu bölgədə uzunmüddətli sabitliyin və tərəfdaşlığın qərarlaşmasına mane olan mənfi faktorların və meyllərin neytrallaşdırılmasına xüsusi ehtiyac vardır. Məsələyə məhz bu baxımdan yanaşdıqda vurğulamaq vacibdir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində artıq özünün həllini tapmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də bölgənin inkişafına, uzunmüddətli sabitliyə mane olan faktorlardan biri olmuşdur. Bu münaqişənin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən öncül strateji vəzifələrdən biri idi. Həm Ulu öndərimiz Heydər Əliyev, həm də Prezident İlham Əliyev dəfələrlə bildirmişlər ki, Azərbaycan istənilən şəraitdə özünün ərazi bütövlüyünü bərpa edəcək və təcavüzkar Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılacaq. Azərbaycan münaqişənin həllinə sülh yolu ilə, diplomatik vasitələrlə nail olmağa çalışırdı, lakin bu o demək deyildi ki, danışıqlar prosesi

[1] Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ. Bakı, Azərnəşr, 1998. səh. 458.

istənilən nəticəni verməyəcəyi təqdirdə, Azərbaycan digər vasitələrə, hərbi gücə əl atmayacaq.

Xüsusi vurğulanır ki, Azərbaycanın tutduğu prinsipial mövqenin və sərgilədiyi praqmatik siyasətin fonunda dünyanın aparıcı dövlətləri, eləcə də fəaliyyətsizliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə uzun illər maneçilik yaradan Minsk qrupunun həmsədr dövlətləri – ABŞ, Fransa və Rusiya, həmçinin beynəlxalq təşkilatlar münaqişənin beynəlxalq hüquq normalarına əsasən sülh yolu və vasitələri ilə həllinin zəruri və qaçılmaz bir proses olduğunu hər zaman bəyan edirdilər. Bununla yanaşı, münaqişənin həlli istiqamətində mühüm təsir və tənzimləmə mexanizminə malik olan bir sıra dövlətlər də nəticəsiz qalan müəyyən səy və cəhdlərlə çıxış edirdilər.

Vurğulanır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional və realist strateji kurs Ermənistan-Azrəbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll ediləcəyinə dair ümidləri son dərəcə artırırdı. Nəticə etibarilə Azərbaycanın praqmatik diplomatiyasının və uğurlu xarici siyasətinin fonunda ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyi proqnozlaşdırılırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu Cənubi Qafqaz bölgəsinin təhlükəsizlik sisteminə də real təhdid idi. Bu münaqişənin həll olunmaması 30 il ərzində regionda tam mənada sülh və sabitliyin əldə olunmasına mane olan böyük amil olmuşdur. Çünki ərazi iddialarının, təcavüz faktının və separatizmin mövcud olduğu məkan və şəraitdə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq meyllərini reallaşdırmaq qeyri-mümkündür. Gəldiyimiz qənaəti Prezident İlham Əliyevin bununla bağlı söylədiyi belə bir fikri ilə tamamlamaq olar: “Artıq neçə illərdir ki, davam edən proses məhz sülh vasitəsilə həllə gətirilməlidir. Lakin, əlbəttə ki, Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməyə və öz qoşunlarını Azərbaycanın beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarından çıxarmağa hazır olub-olmamasından asılı olacaq. Yalnız o halda sülhə nail olmaq olar”. Ancaq sonrakı hadisələr göstərdi ki, Ermənistan dövləti özünün işğalçılıq siyasətindən heç cür əl çəkmək istəmir, hətta,

yeni Azərbaycan ərazilərini işğal etmək fikirlərini də səsləndirir. Beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan həm də beynəlxalq səviyyədə özünün havadarlarına güvənərək Azərbaycana qarşı təxribatlarını daha intensivləşdirmiş və təcavüzkarın belə növbəti genişmiqyaslı təxribatına cavab olaraq 27 sentyabr 2020-ci ildə başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan 30 il Ermənistanın işğalı altında olan özünün tarixi torpaqlarını Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad etmişdir.

Üçüncü fəslin **"Milli siyasi və mənəvi dəyərlərin təhlükəsizliyi dövlətçiliyin möhkəmləndirilməsinin mühüm amili kimi"** adlanan üçüncü yarımfəslində siyasi və mənəvi dəyər anlayışı açıqlanır, ümumi milli dəyərlər sistemində siyasi və mənəvi dəyərlərin yeri və əhəmiyyəti təhlil edilir, bu dəyərlər dövlətçiliyin təkmilləşdirilməsinin vacib və mühüm şərti kimi əsaslandırılır.

Bildirilir ki, azərbaycançılıq ideologiyası sayəsində mədəniyyətlərarası dialoqa nail olunması imkanlarının reallaşdırılması dövlət quruculuğu siyasətinin vacib istiqamətlərindən biridir. Azərbaycan dövlət səviyyəsində mədəniyyətlər və dinlərarası dialoqu təşkil edən, praktiki olaraq onu həyata keçirən yeganə Qafqaz ölkəsidir. Azərbaycan artıq islamlaşma ilə müasirləşmənin səmərəli sintezini reallaşdıran ölkə kimi qəbul edilir və tanınır. Bu istiqamətdə Azərbaycan modelinin nümunə kimi öyrənilməsi də təklif edilir. Bütün bunlar Azərbaycan cəmiyyətinin siyasi və mənəvi həyatını dəyərləndirən real məqam kimi mənalanır. Bunların kökündə isə Heydər Əliyevin azərbaycançılıq ideologiyasında nəzəri şəkildə yer almış prinsiplərin dövlət quruculuğuna tətbiqi mexanizmlərinin işləməsi durur.[1]

Ulu öndərimiz Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsinə ciddi önəm verirdi. Azərbaycan dilinin inkişafı, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin saxlanması və təbliği, mənəvi irsin öyrənilməsi, tariximizin tədqiqi kimi məsələlər onun siyasətində mərkəzi yer tuturdu. Əlbəttə, yalnız milli-mənəvi dəyərlərinə sadiq qalan və onları qoruyan cəmiyyət həqiqi mənada müasirləşə bilər, modern cəmiyyət səviyyəsinə yüksələr. Heydər

---

[1] Əliyev İ. İqtibaslar və təhlillər. Bakı, 2008, səh.128.

Əliyev Dünya azərbaycanlılarının I qurultayında demişdir:“hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” [1]. Qeyd edilir ki, müəllifi Heydər Əliyev olan müasir azərbaycançılıq ideologiyası özündə ümumbəşəri əhəmiyyət kəsb edən və milli dəyərlərə cavab verən prinsipləri ehtiva edir və milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizm kimi səciyyələnir. Bu ideologiya siyasi mənsubiyyətdən və dini əqidəsindən asılı olmayaraq bütün etnik qrupların, milli azlıqların hüquqlarını təsbit etməklə milli həmrəylik dəyəri kimi çıxış edir.

Ümumi siyasi dəyərlər sistemində mədəniyyət xüsusi yer tutur. Siyasi mədəniyyət bütövlükdə cəmiyyətin siyasi sisteminin fundamental xarakteristikası kimi dəyərlənir. Azərbaycanda demokratik siyasi sistemin təşəkkülü və inkişafı ilə bağlı yeni çalarlar kəsb edən milli siyasi mədəniyyət, onun məzmununu təşkil edən siyasi fəaliyyət, siyasi davranış, siyasi inam və siyasi təfəkkür tərzi formalaşmışdır. Azərbaycan xalqının yetkin siyasi mədəniyyəti, siyasi fəaliyyət yönümü cəmiyyətimizin mənəvi-mədəni həyatının çox önəmli dəyərlərindən biri kimi səciyyələnir.

**Nəticədə** tədqiqata yekun vurulur, ümumiləşdirmələr aparılır, onların əsasında nəzəri və praktik əhəmiyyət kəsb edən təklif və tövsiyələr irəli sürülür. Müəllif belə qənaətə gəlir ki, Ulu öndər Heydər Əliyevin dövlətçilik irsi onun müstəqil Azərbaycanın inkişafında tarixi xidmətlərinin məntiqi nəticəsi olaraq milli sərvətə çevrilmişdir. Bu siyasi irs Azərbaycan dövlətçiliyinin müasir inkişaf modelinin yaradıcısı Prezident İlham Əliyev tərəfindən nəzəri və praktik baxımından uğurla inkişaf etdirilir. Heydər Əliyevin nəzəri irsində xüsusi yer tutan milli təhlükəsizlik strategiyası müasir Azərbaycanın milli maraqlarının reallaşması və təhlükəsizliyinin, ərazi bütövlüyünün təmin edilməsində, ölkədə davamlı ictimai-siyasi sabitliyin qorunmasında, qüdrətli dövlət quruculuğunda böyük rol oynayır.

---

[1] Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 10 noyabr 2001-ci il//https://lib.aliyevheritage.org/az/2428604.html

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xarici təhdidlər // Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. İctimai elmlər seriyası. 2011. - №2(39), səh.64-69.
2. Cəmiyyətin modernləşməsi və tranzit problemləri // Tarix və onun problemləri, 2011. - №2, səh.158-163.
3. Müasir şəraitdə Yaxın Şərqdə milli təhlükəsizlik problemi // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. İctimai elmlər seriyası, 2012. - №2 (47), səh.73-78.
4. Qloballaşma prosesində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin başlıca istiqamətləri // "Qloballaşma şəraitində diplomatik münasibətlərin iqtisadi və siyasi xüsusiyyətləri" mövzusunda Bakı Dövlət Universitetinin 95 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları, 27-28 noyabr 2014-cü il, Bakı, 2015, səh. 99-108.
5. Milli Təhlükəsizliyin başlıca istiqamətləri: prioritetlər və konseptual mexanizmlər // "Geostrategiya", sentyabr-oktyabr, 2016. - №05 (35). səh.66-69.
6. Heydər Əliyevin milli təhlükəsizlik siyasətində nəzəriyyə və praktikanın vəhdəti // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, Siyasi elmlər seriyası, 2017. - №4 (60), səh.289-295.
7. Основные направления теоретического наследия Гейдара Алиева во внешней политике Азербайджанской Республики // Основные направления развития теоретического наследия Гейдара Алиева во внешней политике Азербайджанской Республики, Одесская юридическая академия, İSSN 2410-3071. 2017. №20, səh.3-6.
8. Безопасность национальных интересов как политическая проблема // Politicus. İSSN 2414-9616, Вип. 6. 2017. № 06, с. 113-117.
9. Qloballaşma: əsas anlayışlar və yanaşmalar // "Beynəlxalq turizmə innovativ yanaşmaların siyasi və iqtisadi aspektləri"

mövzusunda elmi-praktik konfransın materialları, Beynəlxalq münasibətlər bölməsi, 25-26 dekabr, 2017-ci il. Bakı, 2017, səh.831-836.

10. Heydar Aliyev's Statehood Traditions // İqtisadi və siyasi elmlər jurnalı. Bakı: - 2017. - № 4, səh.160-167.
11. Modernləşməyə dair imperializm və neokolonializm nəzəriyyələri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş respublika elmi-praktik konfransın materialları, 10-11 may, 2018-ci il. Bakı, 2018, səh.482-490.
12. Особенности современной молодежной политики Азербайджана в свете современных международных тенденций // Хуманитарни Балкански Изследвания. 2020. Том 4, №1(7), səh.55-58.
13. Сравнительный анализ концепций национальной безопасности в современных теориях международных отношений // The Founders the science publishing center "Sociosphere – CZ", Academia Rerum Civilium – University of Political and Sosial Sciences. İSSN 2336-2642, Paradigmata poznani, 2020. №2. səh.56-63.
14. Особенности становления правового государства в современный период // Государство Будущего: актуальные проблемы социально-экономического и политико-правового развития. Сборник статей V Международной научно-практической конференция, посвященной 75-летию победы в Великой Отечественной войне. 21 мая 2020 года. Уфа: издательство УГНТУ, 2020, səh.37-39.

Dissertasiyanın müdafiəsi **“21” iyun 2021-ci il** tarixində **saat $14^{00}$-da** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **“20” may 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.05.2021
Kağızın formatı:A5
Həcm: 45339
Tiraj:100